# İranın sərnişin aviasiyasını kim sağlamlaşdıracaq?!



İndiyədək elə təsəvvür yaradılırdı ki, İranın sərnişin aviasiyasında kiçik qüsurları nəzərə almasaq bütün işlər qaydasındadır. Ölkənin sənaye və ticarət naziri Abbas Əliabadinin açıqlaması bu təsəvvürlərin üstündən xətt çəkib. O, bildirib ki, Tehranın məşhur Mehriabad hava limanındda onlarla iflic və qüsurlu vəziyyətdə olan sərnişin təyyarəsi var. A.Əliabadi texniki nasazlığı olan köhnəlmiş təyyarələrin sayının çoxluğuna istinad edərək deyib ki, limanda sanki "təyyarə qəbristanlığı" mövcuddur.

Bundan əvvəl ölkə rəsmiləri də İran İslam respublikasında həmin qəbildən olan aviasiyanın potensial gücünün hələlik 170 təyyarəni əhatə etdiyini vurğulayıblar. Aviasiya təşkilatının isə İran daxili uçuşları keçirməy üçün 550 təyyarəyə ehtiyacı ödənilməlidir.

Əliabadi sözünün davamında ölkənin elmi müəssisələrinə problemin həlli ilə məşğul olmasını vacib sayıb.